BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2014*

**UOT 94 "04/15"**

# A.Y.KRIMSKİ XVI ƏSR AVROPASINDA «TÜRK HEYRANLIĞI» HAQQINDA

**R.İ.İSMAYILOV**
***Bakı Dövlət Universiteti***
***rismayil39@hotmail.com***

*Məqalədə XVI əsr Avropasında «türk heyranlığını» doğuran səbəblər haqqında A.Y.Krımskinin düşüncələrindən bəhs edilmiş, «türk heyranlığının» yayılması və təbliğində almanlar U. fon Qutten və M.Lüter, italyan T.Kampanello, polyak Z.Kapıstenski, fransız J.Bodenin fəaliyyətləri təhlil olunmuşdur.*

**Açar sözlər**: A.Y.Krımski, Osmanlı dövləti, XVI əsr Avropası, Sultan Süleyman, M.Lüter, J.Boden, «türk heyranlığı»

Çağımızda araşdırmaçılar belə bir fikri tez-tez vurğulayırlar ki, Doğunun zəngin sivilizasiyalar tarixini bilmədən və dərk etmədən dünya tarixinin həqiqətlərini tam və bütöv şəkildə öyrənmək mümkün deyildir və əks halda, opponentlər qarşısında davam gətirmək çox çətin olacaqdır. Buna görədir ki, son dövrlərdə Doğu xalqlarının tarixinin öyrənilməsinə maraq bir qədər güclənmişdir və getdikcə daha aydın olur ki, həmin mövzuya müraciət edən tarixçilər hər dəfə onun yeni-yeni məziyyətləri ilə üzləşirlər, hansı səbəbdənsə olduqca ciddi maraq doğuran problemlərə toxunulmadığı, bir qədər yumşaq desək, üstündən sükutla keçildiyi bəzi məqamların elmi dövriyyəyə gətirilməməsi üzə çıxır. Belə məqamlar çoxdur və onları sadalamaq xeyli zaman və məkan alardı. Odur ki, biz bu yazımızda onlardan yalnız biri – XVI əsr Avropasında «türk heyranlığı»nın yaranması haqqında bəzi qeydlərimizi qələmə almaq istərdik.

Bəllidir ki, avropalıların «Möhtəşəm», müsəlmanların «Qanuni» ayaması ilə tarixin yaddaşına həkk etdikləri Sultan Süleyman (1520-1566) dövründə Osmanlı dövlətinin siyasətində Afro-Asiyadan daha çox Avropa problemləri önəmli yer tutdu. Sözügedən coğrafiyada türk hegemonluğu ən yüksək zirvəyə yüksəldi, bu dövlətin beynəlxalq şöhrəti hamının heyran qaldığı gerçəklik oldu. Yaranmış durum dövrün bütün dövlətlərini, Osmanlıya siyasi və coğrafi yaxınlığı və uzaqlığı, dostluğu və düşmənçiliyinə baxmadan, dərindən və ciddi

şəkildə maraqlandırırdı [1, 413-415]. Həmin sırada Avropa dövlətləri özəlliklə fərqlənirdi. Onlardan hər birinin Osmanlı dövləti ilə bu və ya digər formada bağlı olan təmsilçilərinin məlumatlar toplaması və hesabatlar hazırlaması təcrübəsi genişlənirdi [2, 8-14; 3, 5-11]. Məhz həmin müəlliflərin məlumatları ilə tanış olduqdan sonra akad. A.Y.Krımski belə bir nəticəyə gəlmişdir ki, hər yerin, eləcə də Avropanın özünün hər an türklərin hücumu və işğalına məruz qalacağı qorxusunun hakim kəsildiyi bir zamanda avropalılar arasında elə adamlar vardı ki, onlar… nəinki hər an baş verə biləcək türk hücumu və işğalı haqqında dəhşətə gəlmədən düşünürdülər, hətta təmiz ürəklə onu arzu edirdilər. İnanırdılar ki, osmanlıların gəlişi ilə papalığın və orta çağ sosial quruluşunun zülmündən əzablar çəkən Avropada islahatlar baş verəcəkdir [4, 151]. Bununla yanaşı, türk insanının özü də ideallaşdırılırdı [5, 1]. Bütün bunların nəticəsi idi ki, XVI əsr Avropasında bir «türk heyranlığı» yaranmışdı [4, 151-162]. Qeyd etmək lazımdır ki, «türk heyranlığı» və «türk reformasiyası» islahatlarının meydana gəlməsi təsadüfi bir hadisə deyildi və bunun çox ciddi əsasları vardı: birincisi, sözügedən dövrdə «Osmanlı imperiyası istər sosial quruluşu, dövləti və hərbi təşkilatı, istərsə də orada yaşayan xalqların çox müxtəlifliyi baxımından dünya mədəniyyətində nadir təzahürlərdən biri idi» [7,3]; ikincisi, dövrün Osmanlı padşahı Sultan Süleyman şəxsi keyfiyyətləri və məziyyətləri, eləcə də bir hökmdar kimi fəaliyyəti ilə (o dövr dünyasının bir tərəfində «Qanuni», digər tərəfində «Möhtəşəm» adlandırılması onun hökmdar şöhrətinin göstəricisi sayılmalıdır) hamını maraqlandırırdı. Bu baxımdan Venesiya elçisi Bartolomeo Kontarininin sözlərini xatırlatmaq, düşünmək olar ki, həm yerində olardı, həm də kifayət edərdi. B.Kontarini hələ Süleymanın taxta oturmasından bir neçə həftə sonra yazırdı: «Onun 25 yaşı var, ucaboylu, möhkəm cüssəli, xoş sifətlidir… Onun haqqında deyirlər ki, müdrik hökmdardır, öyrənməyi sevir və insanlar onun hakimiyyəti dövründə hər şeyin yaxşı olacağına ümid edirlər» [9, 191; 12, 46]. 1550-1552-ci illərdə İstanbulda elçi olmuş başqa bir venesiyalı Bernardo Navageronun sözləri ilə desək, Sultan Süleyman «qanunları özündən öncə hökmdarlıq etmiş hər kəsdən daha yaxşı bilirdi… hər məsələni çox yaxşı dərk edir və onu ən yaxşı şəkildə həll edirdi» [10, 693; 8, 47]. Osmanlı tarixinin məşhur tədqiqatçısı L.Kinrossa görə Sultan Süleyman ömrünün sonuna kimi mədəni və nəzakətli, doğulduğu Renessans dövrünə layiq insan olaraq qalmışdı. Eyni zamanda müəllif onu da xüsusi vurğulamışdır ki, Sultan Süleyman atası Sultan Səlimin (1499-1520) Doğuda əldə etdiyi zəfərləri Batıda qazanmışdı [9, 191-192]. Həqiqətən də o, müsəlman dünyasında çox böyük uğurlara nail olduğu kimi, xristian dünyasında da qüvvələr balansının ayrılmaz hissəsinə çevrildi. Elə hakimiyyətinin ilk ilindən Batının üç böyük monarxı – Habsburqlar Avstriyasının imperatoru V Karl, Fransa kralı I Fransisk və Tüdorlar İngiltərəsinin kralı VIII Henrix öz qarşılarında iyirmi altı yaşlı Sultan Süleymanın timsalında ona bərabər olan «ikinci Süleymanı» (Tövratdakı Süleyman peyğəmbər nəzərdə tutulur – müəl.) gördülər [9, 189]. Başqa sözlə desək, bərqərar olmuş bu hərbi və siyasi durum XVI əsr Avropasında «türk

heyranlığı»nın təməlində dayanmışdı. A.Y.Krımskinin sözləri ilə desək, «Qanuni, əlbəttə ki, bütün Avropanın diqqətini cəlb etməyə bilməzdi» [4, 151]. XVI əsr Avropasında meydana çıxan bu təzahürü «türk heyranlığı» adlandıran müəllif onun hələ olduqca çox az tədqiq edildiyini yazır və əlavə edir ki, lakin o, bir fakt kimi, şübhəsiz, mövcuddur. Biz ona tarixi nəticələrini dərk etmək üçün diqqətlə və yaxından baxmalı, məna çalarlarının əsl mahiyyətini üzə çıxarmalıyıq [4, 151].

Bildiyimiz kimi, bu məsələni «türk heyranlığı» adı ilə XX əsrin əvvəllərində elmi dövriyyəyə gətirən də elə A.Y.Krımskinin özü olmuşdur. Bu da bəllidir ki, hələ ona qədər başqa bir rus alimi D.N.Yeqorov 1907-ci ildə Moskva Universitetində «XVI əsrdə «türk reformasiyası» ideyası» [5, 1-13] adlı məruzə ilə çıxış etmişdir. Lakin nə sovet dövründə, nə də ondan sonrakı illərdə postsovet məkanında bu məsələyə, bizim məlumat xarakterli yazılarımız istisna olunarsa, diqqət verildiyi faktında rast gəlinmir. Bu, Türkiyə tarixçilərinə, eləcə də digər Osmanlı tarixi araşdırmaçılarına da aiddir.

A.Y.Krımskiyə görə «türk heyranlığı» öncə Almaniyada yayılmağa başlamışdır. Səbəbi də o idi ki, bu ölkədə həmin dövrdə həyatın bütün sahələrində, özəlliklə də dini, sosial sahələrdə böyük və köklü dəyişikliklər edilməsinə ciddi ehtiyac yaranmışdı, onu dərk və təbliğ edənlər də yetərincə idi. Bu sırada 1510-cu illərin ortalarında ölkənin görkəmli siyasi publisisti kimi tanınan humanist ideyalar carçısı Ülrix fon Qüttenin (1488-1523) də əməyi böyük olmuşdur. O, Roma katolik kilsəsinin zorakılığına və ölkədəki əlaltılarına qarşı idi, Almaniyanın mərkəzləşdirilməsini istəyirdi. Ülrix fon Qütten deyilənlərin baş tutmasını üç amilin: 1) knyazların mövcud problemlərə ciddi yanaşması; 2) xalqın istəyi və 3) türk ordusunun ölkəyə gəlməsinin vəhdəti ilə mümkün ola biləcəyinə inanırdı [4, 151]. Ülrix fon Qüttenin bu sözləri və inamını A.Y.Krımski belə əsaslandırır ki, hələ ona qədərki dövrdə Almaniyada türklərin ölkəyə gəlməsi istəyi mövcud idi və yazır ki, Ülrix fon Qüttendən sonra da onun haqqında bəhs edildiyi ovqat nəinki yalnız Almaniyada, həm də bütün XVI əsr boyunca digər ölkələrdə avropalılar arasında yaşanmışdır [4, 162].

Ülrix fon Qüttendən sonra onun irəli sürdüyü ideyalar Reformasiya hərəkatının görkəmli lideri Martin Lüter (1483-1546) tərəfindən daha əsaslandırılmış şəklə salınmışdı. O da Almaniyanın istiqlaliyyət qazanması və Reformasiya məsələsində türk amilinin önəmli rol oynayacağı qənaətində idi və inamını belə ifadə edirdi: ***«Bizə yalnız ya sosial revolyusiya, ya da türk reformasiyası kömək edə bilər** [5, 1].* Görkəmli rus araşdırmaçısı D.N.Yeqorov bu ifadədən bəhs edərkən onun ikinci hissəsini xüsusi vurğulamış və yazmışdır ki, ***həmin hissə özündə indiyə qədər tədqiq edilməmiş qalan faktlara işarə mahiyyəti daşıyır*»** (5, 1).

Martin Lüter də sələfi kimi islahatlar üçün knyazlar, xalq və türklər üçlüyünün vəhdətini ən zəruri şərt hesab edirdi (5, 4) və «türk heyranlığı»nda daha irəli getmişdi. «***Türk[lər] bizim müəllimimizdir… O[nlar] bizi allahdan qorxmağa, allaha ibadət etməyə öyrətməlidir [lər]»*** (5, 7). Martin Lüterin bu

səpkili çıxışları və yazıları, təbiidir ki, birmənalı, özəlliklə kilsə xadimləri tərəfindən, qarşılanmırdı, ünvanına müxtəlif ittiham və iradlar söylənilirdi. Hətta Osmanlı agenti adlandıranlar da tapılırdı [11, 12-15].

Martin Lüterin «***türklərə qarşı mübarizə etmək allaha qarşı çıxmaq deməkdir***» sözləri rəsmi kilsə tarixçilərinin uzun zaman müzakirə mövzusu olaraq qalırdı. Hətta onlardan biri Martin Lüterin ölümündən qırx il sonra yazırdı ki, guya o, papaya nifrətindən qızışaraq arzulayırdı ki, türklər Almaniyanı və İtaliyanı tutsunlar [4, 153]. Yəni Martin Lüter əslində belə istəmirdi, yaxud həmin sözləri istəmədən söyləmişdir, - kimi yozmağa cəhd edilirdi.

Martin Lüterin çıxışlarında nəinki özünün, eləcə də onun yerliləri olan sadə xalqın arasında da «***türklərin gəlməsini və hakimiyyətini arzu edənlər vardır***» [4, 153], - fikri xüsusi vurğulanırdı. Onlar da bildirirdilər ki, «***imperatorun və knyazların hakimiyyəti altında olmaqdansa, türklərin hakimiyyəti altında olmaq daha yaxşıdır***». Bu fikrin davamı olaraq Martin Lüter başqa bir çıxışında isə demişdir ki, «***alman xalqı türklərə lap elə müqəddəslər kimi baxır. Türklər güclüdürlər və həmişə qalib gəlirlər***». Xalq bunu «***onların inancı və həyat tərzi Allahın xoşuna gəlir***» - deyə izah edirdi [4, 153].

Martin Lüterin çıxışlarındakı maraqlı məqamlardan birisi də onun türk din xadimlərinin dinlə bağlı digər insanların (təriqət başçıları, dərvişlər və b. nəzərdə tutulur – müəl.) özlərini olduqca təmkinli, alicənab və ciddi aparmalarını xüsusi vurğulaması, onları mələklər adlandırması, xristian keşiş və rahiblərin onlarla müqayisədə gülünc görsənməməsini cəsarətlə dilə gətirmişdir (4, 154).

Yeri gəlmişkən qeyd edək ki, XVI əsr Avropasında heyranlıq doğuran Osmanlı gerçəklərindən birisi ***də türklərin tam dini dözümlülüyü***,- çağdaş dövrün ifadəsi ilə desək, ***dini tolerantlıq***,-idi. Osmanlı dövləti hüdudları daxilində yaşayan bütün xristianlar öz dinlərinin ehkamları əsasında yaşayır, heç bir inkiviziasiyaya məruz qalmır və təqib olunmurdular [4, 154]. Halbuki, həmin dövrdə Avropa hökmdarları rəsmi xristianlıq xaricində təriqət və inanclara məxsus bütün dindarları təqib edir, müəyyən zamanlarda həvəslə və kütləvi şəkildə məhv edirdilər [4, 3]. Lakin 1519-cu ildə analoji bir məsələnin müzakirəsi divanda gündəmə gətiriləndə Sultan Səlim qətiyyətlə onun əleyhinə çıxmış və xristianların bütün hüquqları qorunub saxlanılmışdır [4, 3-4]. Bütün bunlar avropalıların diqqətindən kənarda qalmır, onlar dini münasibətlər baxımından Osmanlı dövlətinə cənnət kimi baxırdılar. Demək lazımdır ki, bu hal təkcə Almaniya üçün deyil, İtaliya, Polşa, Moskva Rusiyası və digər ölkələr üçün də xarakter idi [4, 155-156]. Onların arasında Polşa daha çox fərqlənirdi. Çünki həmin dövrdə Osmanlı dövləti xarici təzyiqlərdən qorunmasında Polşaya ciddi dəstək verirdi və hətta 1575-ci ildə Roma imperatorunun istəyinin əksinə Stefan Batoriyanın hakimiyyətə gəlməsi onun sayəsində mümkün olmuşdu. 1696-cı ildə Brest uniyasının şərtləri bəlli olduqdan sonra isə Polşada «***türk heyranlığı***» və «***türk dini dözümlülüyü***»nün tərifi üçün deyilməyən söz qalmamışdı. Bu haqda dövrün qaynaqlarında öz əksini tapan məlumatlar da

deyilənləri təsdiq edir [6, 156].

Qeyd edək ki, Polşanın Doğu Avropanın digər slayvan ölkələri ilə ilişkilərinin genişlənməsi zəminində həmin ölkələrdə də, eləcə də Moskva Rusiyasında «***türk dini dözümlülüyü***»nün təriflənməsi halı yüksəlirdi [4, 156].

A.Y.Krımskiyə görə ağır vergilərdən, məmurların rüşvətxorluğundan və digər sosial-iqtisadi çətinliklərdən əziyyət çəkən sadə avropalıları «türk dini dözümlülüyün»dən daha çox Osmanlı dövlətinin öz xalqına sevgisi haqqında eşitdikləri məlumatlar cəzb edirdi. Bu baxımdan o, avropalıların, əsasən də Almaniyada təmtəraqla qeyd etdikləri almanca fastnax[fastnasht], - rusca maslyantsa, digər dillərdə müvafiq olaraq müxtəlif cür adlandırılan bayram şənliklərində göstərilən tamaşalarda «Türk» obrazının varlığını nümunə gətirir. Bu «Türk» kəndli və tacirləri zadəganların zülmündən, məhkəmə haqsızlığı və məmur özbaşınalığından qoruyur və günahkarları cəzalandırır [4, 157]. Ümumiyyətlə isə «türk ədaləti» və «xalqın rifahı» idealizə olunur, Osmanlı idarəçilik sistemi və Osmanlı sultanı obrazı tərif edilir, Batı Avropada mövcud olan quruluşa qarşı qoyulurdu. A.Y. Krımski yazır ki, sultan hakimiyyətinin ideal sayılmasının əsası hələ 1518-ci ildə Sultan Səlim Yavuzun (1512-1520) dövründə florensiyalı Makiavelli (1469-1527) tərəfindən qoyulmuşdur. Zaman keçdikcə bu ideya daha tez-tez səslənmişdir. XVI əsrin lap sonlarında 1599-cu ildə italyan filosof Tommazo Kampanella (1568-1639) da yaşadığı Kalabriya əyalətində islahatların aparılması üçün türklərin oranı fəth etməsiylə mümkün olacağını söyləyirdi [4, 152].

Nəhayət, məşhur fransız publisist-finansist, dövlət hüququnun yaradıcısı Jan Boden [Jean Bodin (1530-1596)] yazılarında xüsusi qeyd edirdi ki, ölkəsindəki maliyyə məsələlərini türk dövlətinin təcrübəsi əsasında həll etmək olar [4, 158]. Həmin dövrdə digər bir fransız müəllif Ponse [Ronset] «La France-Turquie» adlı pamflet yazır və orada sübut etməyə çalışırdı ki, Fransa təxirə salmadan Türkiyədə mövcud olan ideal dövlət quruluşunu mənimsəməlidir [4, 153]. Qeyd edək ki, haqqında bəhs olunan «türk heyranlığı» pravoslav kilsəsinin əsas dayağı sayılan Moskva Rusiyasından da yan keçməmişdir [4, 169-162; 3, 5-11].

Bütün bu deyilənlərin sonunda belə söyləyə bilərik ki, XVI əsrdə, demək olar ki, bütün Avropa ölkələrində geniş şəkildə təbliğ, təşviq və tərif olunan «türk heyranlığı» və «türk reformasiyası» bölgə xalqlarının yeni tarixi inkişafına yetərincə təsir etdi. Nəticədə həmin əsr dünya tarixində Böyük coğrafi kəşflər, Kilsə islahatları, Dirçəliş və Kapitalizmin meydana gəlməsi dövrü kimi xüsusi yer tutdu. Dünyanın hüdudları genişləndi, teoloji ehkamlar humanizm ideyaları ilə əvəz edildi, yeni millətlər və dövlətlər təşəkkül tapdı, burjua demokratiyasının təməlləri qoyuldu - Avropa göz önündə dəyişdi.

## ƏDƏBİYYAT

1. İsmayılov R.İ., Krımski A.Y. XVI əsr Avropası və Rusiyasında türk insanı və dövlətinə münasibət haqqında / akad. V.Məmmədəliyevin 70 illiyinə həsr olunmuş konfransın materialları. Bakı, 14-15 noyabr. 2012-ci il, s. 413-415
2. İsmayılov R., Alıyeva S., Bayramova A., Krımski A.Y. Osmanlı dövlətçilik ənənələrinin Moskva çarı IV İvana təsiri haqqında // Tarix və onun problemləri, №4, 2013, s.8-14
3. İsmayılov R., Qrek M. və Peresvetov İ.: A.Y.Krımskinin gözü ilə // Tarix və onun problemləri, №4, Bakı, 2012, s.5-11
4. Крымский А.Е. История Турции и ее литературы от рассвета до начала упадка. М., 1910, 164 с.
5. Егоров Д.Н. Идея « турецкой реформации в XVI в.», книга VII , отд.II, М.: Русская Мысль, 1907, с.1-13
6. Захария Копыстенский. Полинодия, изв. в «Русской Исторической Библиотеке», т.IV, стр. 879, 930
7. Петросян Ю.А. Османская империя. Могущество и гибель. М.: Наука, 1990, 280 с.
8. Venedik elçilerinin raporlarına göre Kanuni və Parqalı İbrahim paşa, çeviren Pinar Gökpar Eletra Ercolino. İstanbul, Yeditepe, 2012, 172 s.
9. Лорд Кинросс. Расцвет и упадок Османской империи. М.: «Крон-Пресс», 1999, 695 с.
10. R.İsmayılov. A.Y.Krımski Sultan I Süleyman haqqında / Azərbaycan Şərqşünaslıq elminin inkişaf yolları. Akad.V.Məmmədəliyevin 70 illiyinə həsr olunmuş Elmi konfransın materialları. Bakı, 2013, s.692-693
11. Nesdet Sevinç. Osmanlılar'da sosyo-ekonomik yapı, cilt 1. Kutsun Yayınevi, İstanbul, 1978, 305 s.


## А.Ю.КРЫМСКИЙ О «ТУРКОФИЛЬСТВЕ» В ЕВРОПЕ В XVI ВЕКЕ


**Р.И.ИСМАИЛОВ**


## РЕЗЮМЕ


В статье рассматриваются взгляды А.Ю.Крымского о причинах возникновения «туркофильства» в Европе в XVI в. В ней анализируется деятельность немцев У.фон Гуттена и М.Лютера, итальянца Т.Кампанеллы, поляка З.Капыстенского, француза Ж.Бодена, которые способствовали распространению и пропаганде «туркофильства».



**Ключевые слова**: А.Ю.Крымский, Османское государство, Европа XVI века, султан Сулейман, М.Лютер, Ж.Боден, «туркофильство»


## A.Y.KRYMSKI ON "TURKOPHYLIA" IN EUROPE IN THE XVI CENTURY


**R.I.ISMAYILOV**


## SUMMARY


Views of A.Y.Krymski on emergence of "Turkophylia" in Europe in the XVI century are analyzed in the article. The activity of Germans U.von Hutten and M.Luther, Italian T.Campanella, Polish Z.Kapystenski, French J.Bodin, who contributed to spread and propaganda of "Turkophylia" is analyzed.



**Key words:** A.Y.Krymski, Ottoman State, Europe in the XVI century, Sultan Suleyman, M.Luther, J.Bodin, "Turkophylia"